# “SOSİAL DƏSTƏK MƏRKƏZİ” PUBLİK HÜQUQİ ŞƏXS

**31 dekabr 2024-cü il tarixində bitən il üzrə**
**Maliyyə hesabatları və Müstəqil Auditorun Hesabatı**

# MÜNDƏRİCAT

**Səhifə**

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

MÜSTƏQİL AUDİTORUN HESABATI

31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI:

| | |
|---|---|
| Maliyyə vəziyyəti haqqında hesabat | 1 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 2 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 3 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 4 |
| Maliyyə hesabatları üzrə qeydlər | 5-25 |

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında (hesabatın 2-ci səhifəsi) göstərilmiş auditorun rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "Sosial Dəstək Mərkəzi" Publik Hüquqi Şəxsin (bundan sonra "Mərkəz") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik Mərkəzin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixlərdə başa çatmış il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri MHBS Mühasibat Uçotu Standartlarına müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Mərkəz işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Mərkəz daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Mərkəzin maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Mərkəzin maliyyə hesabatlarını istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Mərkəzin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2024-cü il tarixinə maliyyə hesabatları 2 iyun 2025-ci il tarixində Mərkəzin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərlik tərəfindən:**

| | |
|---|---|
| **İsrafilov İsmayıl** | **Hicran Əliyeva** |
| **Direktor** | **Baş mühasib** |
| 2 iyun 2025-ci il | 2 iyun 2025-ci il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

"Sosial Dəstək Mərkəzi" Publik Hüquqi Şəxsin Təsisçisi və Rəhbərliyinə:

**Şərti müsbət rəy**

Biz "Sosial Dəstək Mərkəzi" Publik Hüquqi Şəxsin (bundan sonra "Mərkəz") 31 dekabr 2024-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə xalis xərclər haqqında hesabatdan, xalis aktivlərdə dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsas paraqrafında təsvir olunan məsələnin təsiri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə MHBS Mühasibat Uçotu Sandartlarına əsasən tam maliyyə hesabatlarını hazırlamaq məqsədilə, standartlar və şərhlər haqqında effektiv olması gözlənilən ehtimallar və tətbiq edilməsi gözlənilən qaydalar da daxil olmaqla 2 saylı Qeyddə göstərilən "Təqdimatın əsasları" üzrə 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının hazırlanması qaydalarına uyğun şəkildə hazırlanmışdır.

**Şərti müsbət rəy üçün əsas**

*İnvestisiya mülkiyyəti*

31 dekabr 2024-cü il tarixinə Mərkəzin investisiya mülkiyyətinin ümumi qalıq dəyəri 2,446,993 AZN (31 dekabr 2023-cü il tarixinə: 2,631,184 AZN) olan aktivlər ilkin tanınma anında ədalətli dəyər ilə deyil, mühasibatlıq qalıq dəyəri ilə ölçülmüşdür. Əlavə olaraq, Mərkəz investisiya mülkiyyətinin dəyərsizləşməsi ilə bağlı hesablama həyata keçirməmişdir. Müvafiq olaraq, Mərkəzin balansına ötürülmüş əmlakların ilkin tanınması və sonradan ölçülməsi, onun xalis aktivlərə, xalis xərclərə təsiri ilə bağlı əminlik əldə edə bilmədik.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Mərkəzdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Mərkəzi ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Mərkəzin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Mərkəzin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Mərkəzin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranmış əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində yaranmış əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranmış təhrifi aşkarlamamaq riskindən daha yüksəkdir, çünki, saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Mərkəzin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Mərkəzin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Mərkəzin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

2 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

# “SOSİAL DƏSTƏK MƏRKƏZİ” PUBLİK HÜQUQİ ŞƏXS
## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il (*yenidən qiymətləndirilmiş) |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 7 | 78,479 | 18,806 |
| Qeyri-maddi aktivlər | 7 | 4,022 | - |
| İnvestisiya mülkiyyəti | 8 | 2,446,993 | 2,631,184 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **2,529,494** | **2,649,990** |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 357,033 | 276,579 |
| Debitor borclar | 10 | 4,772 | 3,445 |
| Verilmiş avanslar | | 1,111 | 712 |
| Cari aktivlər | | 2,965 | 6,171 |
| **Cəmi cari aktivlər** | | **365,881** | **286,907** |
| **CƏMİ AKTİVLƏR** | | **2,895,375** | **2,936,897** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 11 | 3,270,213 | 3,270,213 |
| Əlavə qoyulmuş kapital | | 285,740 | 205,363 |
| Yığılmış zərər | | (660,578) | (538,679) |
| **Cəmi kapital** | | **2,895,375** | **2,936,897** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **2,895,375** | **2,936,897** |

* Burada göstərilmiş müəyyən məbləğlər 2023-cü il üzrə maliyyə hesabatlarına uyğun deyil və yenidən qiymətləndirilmə düzəlişləri əks etdirir, 19 saylı qeydə baxın.

**Rəhbərlik tərəfindən:**

**İsrafilov İsmayıl**
**Direktor**
2 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Hicran Əliyeva**
**Baş mühasib**
2 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **MƏSRƏF VƏ XƏRCLƏR:** | | | |
| İşçi heyəti ilə bağlı məsrəflər | 12 | (580,598) | (510,048) |
| Sosial xidmət və maddi yardım xərcləri | 13 | (142,058) | (245,605) |
| Köhnəlmə və amortizasiya xərcləri | 7 | (197,190) | (203,399) |
| İnzibati və digər əməliyyat xərcləri | 14 | (76,340) | (64,758) |
| **ƏMƏLİYYAT XƏRCLƏRİ** | | **(996,186)** | **(1,023,810)** |
| Digər əməliyyat gəlirləri | 15 | 874,286 | 867,689 |
| **VERGİDƏN ƏVVƏLKİ ZƏRƏR** | | **(121,900)** | **(156,121)** |
| **İL ÜZRƏ ZƏRƏR** | | **(121,900)** | **(156,121)** |

**Rəhbərlik tərəfindən:**

**İsrafilov İsmayıl**
**Direktor**
2 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Hicran Əliyeva**
**Baş mühasib**
2 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

*

| | Qeyd | Nizamnamə kapitalı | Əlavə kapital | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|---|
| **01 yanvar 2022 tarixinə qalıq** | | **3,270,213** | **205,363** | **(192,281)** | **3,283,295** |
| 2022-ci il üzrə yaranmış zərər | | - | - | (190,277) | **(190,277)** |
| **01 yanvar 2023 tarixinə qalıq** | | **3,270,213** | **205,363** | **(382,558)** | **3,093,018** |
| 2023-cü il üzrə yaranmış zərər | | - | - | (156,120) | **(156,120)** |
| **31 dekabr 2023 tarixinə qalıq** | | **3,270,213** | **205,363** | **(538,678)** | **2,936,898** |
| Digər kapitalda artım | | **-** | 80,377 | **-** | **80,377** |
| 2024-cü il üzrə yaranmış zərər | | **-** | **-** | (121,900) | **(121,900)** |
| **31 dekabr 2024 tarixinə qalıq** | | **3,270,213** | **285,740** | **(660,578)** | **2,895,375** |

**Rəhbərlik tərəfindən:**

**İsrafilov İsmayıl**
**Direktor**
2 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Hicran Əliyeva**
**Baş mühasib**
2 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN AXINI:** | | | |
| Müştərilərdən daxil olan pul vəsaitləri | | 871,382 | 932,834 |
| Təchizatçılara ödənilən pul vəsaitləri | | (63,288) | (65,167) |
| Maddi yardım və müavinatlar üzrə ödənilən pul vəsaitləri | 13 | (142,058) | (245,605) |
| İşçilərə ödənilən pul vəsaitləri | 12 | (580,598) | (510,048) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **85,439** | **112,014** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN AXINI:** | | | |
| Əmlak, tikili və avadanlıqların və qeyri maddi aktivlərin satın alınması üzrə ödənişlər | 7 | - | (10,639) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | | - | **(10,639)** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM | | 80,454 | 101,375 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | 9 | **276,579** | **175,204** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 9 | **357,033** | **276,579** |

**Rəhbərlik tərəfindən:**

**İsrafilov İsmayıl**
**Direktor**
2 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Hicran Əliyeva**
**Baş mühasib**
2 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

## 1. Mərkəz və onun fəaliyyəti

### Ümumi məlumat

“Sosial Dəstək Mərkəzi” Publik Hüquqi Şəxsi (bundan sonra “Mərkəz”) əlilliyi olan şəxslərin, işsiz və işaxataranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin məşğulluğu, sosial müdafiəsi, təminatı, sosial adaptasiyası ilə bağlı tədbirlər, həmçinin bu istiqamətdə müxtəlif sosial dəstək layihələrin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tabeliyində yaradılan publik hüquqi şəxsdir.

Mərkəzin nizamnaməsi 6 Avqust 2021-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 306-ci nömrəli Qeydiyyat Şəhadətnaməsi ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tabeliyində “Sosial Dəstək Mərkəzi” Publik Hüquqi Şəxsi 2021-ci ilin 6 Avqust tarixində 1007134701 (VÖEN) qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslər üzrə dövlət qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Hazırkı maliyyə hesabatları 31 dekabr 2022-ci ildə tamamlanan il üzrə MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində “Sosial Dəstək Mərkəzi” Publik Hüquqi Şəxsi üçün tərtib edilmişdir.

Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslər üzrə dövlət qeydiyyatı İdarəsinin 6 avqust 2021-ci il tarixli 2101020051364300 nömrəli dövlət reyestrində çıxarışa əsasən qanuni təmsilçinin Qəniyev Tural Ramazan oğlu olduğu öz əksini tapıb. Həmin çıxarışa əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tabeliyində “Sosial Dəstək Mərkəzi” Publik Hüquqi Şəxsi -nin Nizamnamə fondu təsisçi tərəfindən aşağıdakı kimi formalaşdır:

Mərkəzin fəaliyyət istiqamətlərinə aşağıdakılar daxildir:

- Əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin məşğulluğu; sosial adaptasiyası məqsədi ilə bu kateqoriyadan olan şəxslər üçün iş yerlərinin yaradılması, onların bilik və bacarıqlarının artırılması, sosial adaptasiyası üçün tədbirlər görmək;
- Əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlər ğörmək;
- Əldə etdiyi aktiv və gəlirlər hesabına əlilliyi olan şəxslərə, işsiz və işaxtaranlara, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə maddi yardım göstərmək.

Mərkəzin hüquqi ünvanı və əsas fəaliyyət göstərdiyi ünvan: AZ1106, Bakı şəhəri, Binəqədi rayonu, Ziya Bünyadov, ev.məh.3103. 31 dekabr 2024-cü il tarixinə Mərkəzin 19 nəfər işçisi olmuşdur (31 dekabr 2023-cü il tarixinə 20 nəfər).

## 2. Əhəmiyyətli mühasibat prinsipləri

### Giriş

Hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmışdır.

Maliyyə hesabatı, törəmə müəssisələrə investisiyaların ilkin dəyərlə uçota alındığı əsas müəssisə tərəfindən təqdim olunan, “Maliyyə Hesabatları” adlı 27 saylı MUBS-a uyğun olaraq hazırlanmış MHBS üzrə maliyyə hesabatlarıdır.

### Fasiləsizlik prinsipi

Hazırkı maliyyə hesabatları Mərkəzin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

## 2. Əhəmiyyətli mühasibat prinsipləri (davamı)

### Fasiləsizlik prinsipi (davamı)

Rəhbərlik hesab edir ki, Mərkəz yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Mərkəzin ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Mərkəzin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Mərkəzin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.
nəzərdə tutur.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi müəyyən bir müddətdə hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

### Cari və uzunmüddətli təsnifləşdirmələr

Mərkəz aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əsasında maliyyə hesabatlarında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

• Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulduqda və ya satılması ehtimal edildikdə;
• İlkin olaraq alqı-satqı məqsədilə saxlanıldıqda;
• Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
• Pul vəsaitləri və onların ekvivalentlərinin hesabat tarixindən sonra ən azı on iki ay müddətində mübadilə edilməsi və ya öhdəliyin ödənilməsi üzrə istifadə edilməsi məhdudlaşdırılmadıqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

• Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
• İlkin olaraq alqı-satqı məqsədilə saxlanıldıqda;
• Hesabat tarixindən sonrakı 12 ay ərzində ödənilməsi ehtimal edildikdə; və ya
• Hesabat dövründən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquq mövcud olmadıqda.

Mərkəz bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.

Təxirə salınmış vergi aktiv və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

### Təqdimat digər əsasları

Hazırkı maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda, Azərbaycan Manatı ("AZN") ilə ifadə edilir. Maliyyə hesabatları şərti dəyər kimi ədalətli dəyərdə qeydə alınan əmlak, tikili və avadanlıqlar istisna olmaqla tarixi dəyər əsasında tərtib edilmişdir.

Mərkəz mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Hazırkı maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-yə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir.Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

## 2. Əhəmiyyətli mühasibat prinsipləri (davamı)

### Əmlak, tikili və avadanlıqlar

Əsas vəsaitlər hər hansı yığılmış köhnəlmə və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, ilkin dəyərdə uçota alınır. Əsas vəsaitlər ilə bağlı sonrakı xərclər müvafiq olaraq aktivin qalıq dəyərində və ya ayrıca aktiv kimi yalnız o halda tanınır ki, həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Mərkəzə daxil olması ehtimal edilsin və onun dəyəri etibarlı şəkildə ölçülə bilsin. Kiçik həcmli təmir və gündəlik xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əsas vəsaitlərin əsas hissələrinin və ya komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Aktivin silinməsindən yaranan gəlir və ya zərər silinmədən daxil olan vəsait ilə həmin aktivin qalıq dəyəri arasındakı fərq kimi hesablanır və mənfəət və ya zərərdə aktivin silindiyi ildə tanınır.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əsas vəsaitlər üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Qalıq dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri bərpa edilir.

Köhnəlmə müvafiq aktivlərin aşağıda göstərilən köhnəlmə dərəcələrinə uyğun olaraq onların təxmini faydalı istifadə müddəti ərzində azalan qalıq metoduna əsasən hesablanır:

| | |
|---|---|
| Maşın və avadanlıqlar | 20% |
| Mebel, ləvazimatlar və digər ofis avadanlıqları | 20% |
| Nəqliyyat vasitələri | 25% |
| Qeyri-maddi aktivlər | 10% |

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra  tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

### İnvestisiya mülkiyyəti

İnvestisiya mülkiyyətinə uzunmüddətli kapital məqsədləri ilə əldə edilmiş və hal-hazırda əməliyyat icarəsi ilə icarəyə verilmiş binalar daxildir. Bu mülkiyyətlər əsasən icarə gəliri əldə etmək və ya kapital qiymət artımı məqsədilə saxlanılır. İnvestisiya mülkiyyəti ilkin olaraq alış dəyərində tanınır. Bu alış dəyərinə əmlakın əldə olunması ilə bağlı bütün birbaşa xərclər daxil edilir. İlkin tanınmadan sonra investisiya mülkiyyəti dəyər metodu ilə – yəni alış dəyəri əsasında, yığılmış amortizasiya və mümkün dəyərsizləşmə zərərləri çıxıldıqdan sonra uçota alınır. Binaların amortizasiyası onların faydalı ömürləri ərzində düz xətt methodla aparılır.

## 2. Əhəmiyyətli mühasibat prinsipləri (davamı)

### Avans ödənişləri

Avans ödənişləri zərər üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avans ödənişləri ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edildikdə avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edilir.

Aktivlərin əldə olunması üçün ödənilmiş avanslar Mərkəz aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin qalıq dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Mərkəzə daxil olacağı ehtimal olunur. Avans ödənişlərinə aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avans ödənişləri mənfəət və zərər hesablarına silinir.

Avans ödənişləri ilə bağlı aktivlər, mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avans ödənişlərin qalıq dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri xalis xərclər haqqında hesabatda qeydə alınır.

### Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qısamüddətli qoyuluşlardır.

Pul vəsaitləri və onların ekvivalentlərinə banklarda olan nağd pul daxildir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınır, çünki:

(i) onlar müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təqdim edir; və
(ii) onlar MZVƏD olaraq təyin edilmir.

### Debitor borcları və digər alınacaq vəsaitlər

Debitor borcları və digər alınacaq vəsaitlər ilkin olaraq ədalətli dəyərlə tanınır və sonradan effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə uçota alınır.

### Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb-satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

## 2. Əhəmiyyətli mühasibat prinsipləri (davamı)

### Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları (davamı)

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir, (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.
*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir.

Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

*Amortizasiya olunmuş dəyər (AD)* əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə ehtimal olunan kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir. Hesablanmış faizlərə ilkin tanınma zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz dərəcəsi metodundan istifadə etməklə ödənilməli məbləğ üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin qalıq dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin qalıq dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin fəaliyyət müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi qalıq dəyərinə diskontlaşdıran dərəcədir.

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Belə mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

## 2. Əhəmiyyətli mühasibat prinsipləri (davamı)

### Maliyyə alətlərinin ilkin tanınması

MZVƏD kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərləri üçün ehtiyat tanınır.

### Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi

Mərkəz maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə təsnifləşdirir və ölçür. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Mərkəzin biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Biznes model Mərkəzin pul axınları əldə etməsi məqsədilə aktivlərin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir. Mərkəzin məqsədi aktivlərdən yalnız müqavilə üzrə pul axınlarını əldə etməkdir ("müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması").

Biznes modelin məqsədi müqavilə üzrə pul axınlarının əldə edilməsi olduqda, Mərkəz pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olub-olmadığını (YƏMFÖ təhlili) qiymətləndirir.

YƏMFÖ təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir. Hazırda Mərkəzin MZVƏD və ya DMGVƏD kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri yoxdur.

### Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi

Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada – biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Mərkəz cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

### Maliyyə aktivlərinin dəyərsizləşməsi: ehtimal olunan kredit zərərləri üzrə ehtiyat

Mərkəz amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri üzrə ehtimal olunan kredit zərərlərini (EOKZ) proqnozlar əsasında qiymətləndirir. Mərkəz hər bir hesabat tarixində ehtimal olunan kredit zərərlərini qiymətləndirir və kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatı tanıyır.

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat. Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri ehtimal olunan kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

### Maliyyə aktivlərinin silinməsi

Maliyyə aktivlərini bərpa etmək üçün Mərkəzin bütün praktiki imkanları tükəndikdə və Mərkəz belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir. Mərkəz müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər

## 2. Əhəmiyyətli mühasibat prinsipləri (davamı)

### Maliyyə aktivlərinin tanınmasının dayandırılması

Mərkəz aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (i) aktivlər geri alındıqda və ya bu aktivlərlə bağlı pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (ii) Mərkəz həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (iii) Mərkəz bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda və həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

### Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları

Mərkəzin maliyyə öhdəlikləri amortizasiya olunmuş dəyərlə ölçülür və maliyyə vəziyyəti haqqında hesabatda göstərilən “kreditor borcları və digər ödəniləcək vəsaitlər” və “icarə öhdəliyi”ndən ibarətdir.

### Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması

Borc alətlərinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınarsa, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin icrası üzrə mənfəət və ya zərərdə tanınır.

Borc alətinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınmadıqda, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin qalıq dəyərinə düzəliş kimi əks etdirilir və modifikasiya edilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya edilir.

Öhdəliklərin icrası ilə nəticələnməyən dəyişikliklər əvvəlki tarixlə məcmu amortizasiyanın hesablanması metodu ilə təxmini göstəricinin dəyişməsi kimi uçota alınır və bu zaman gəlir və ya zərər qalıq dəyərindəki fərqin iqtisadi mahiyyəti səhmdar ilə kapital əməliyyatlarına aid edilmədiyi təqdirdə mənfəət və ya zərərdə əks etdirilir.

### Maliyyə alətlərinin əvəzləşdirilməsi

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır: (i) adi fəaliyyət gedişində, (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

### Ticarət kreditor borcları

Ticarət və digər kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı hesablanır və ilkin olaraq ədalətli dəyərdə sonra isə effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə qeydə alınır.

### Nizamnamə kapitalı

Mərkəzin nizamnamə kapitalı 100% Azərbaycan Respublikasına məxsusdur.

## 2. Əhəmiyyətli mühasibat prinsipləri (davamı)

### Gəlirlərin tanınması

15 saylı MHBS, müəssisələrə müştərilər ilə bağlanmış müqavilələrdən gəlirlərin uçotu üzrə vahid məcmu modeli tətbiq edir.

15 saylı MHBS-nin əsas prinsipinə görə, Mərkəz vəd edilmiş malların və ya xidmətlərin müştərilərə köçürülməsini əks etdirmək üçün gəliri Mərkəzin həmin mal və ya xidmətlər müqabilində hüquq əldə etməyi gözlədiyini əks etdirən məbləğdə tanımalıdır. Standart, xüsusilə gəlirlərin tanınması üçün beş-addımlı bir yanaşma təqdim edir:

- 1-ci Addım: Müştərilərlə bağlanmış müqavilə və ya müqavilələri müəyyən etmək;
- 2-ci Addım: Müqavilə öhdəliklərini müəyyən etmək;
- 3-cü Addım: Əməliyyat qiymətini müəyyən etmək;
- 4-cü Addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
- 5-ci Addım: Müəssisə müqavilə öhdəliklərini yerinə yetirirsə (yetirdiyi zaman) gəlirin tanınması.

15 saylı MHBS-in tələblərinə cavab verməyən daxilolmalar dövlət tərəfindən daxilolmalar və əvəzsiz olaraq alınan aktivlər – təsisçi tərəfindən kapital qoyuluşu qismində birbaşa olaraq ümumi kapital qoyuluşu hesabında tanınır.

### Əməliyyat xərcləri

Əməliyyat xərcləri sosial tədbirlərin təşkili, müharibə içtirakçılarına və şəhid ailələrinə dəstək, işsiz və işaxtaran, əlilliyi olan şəxslərin, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin müdafiəsi və təminatı,və.s kimi Mərkəzin sosial xidmət fəaliyyəti ilə birbaşa əlaqəli olan xərclərdən ibarətdir və qeyd edilən xərclər yarandığı zaman tanınır.

### İşçi heyəti ilə bağlı ödənişlər

Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Mərkəzin işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır. Mərkəzin yerli qanunvericiliklə müəyyən edilmiş haqlar üzrə ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

### Öhdəliklər və xərclər üzrə ehtiyatlar

Öhdəliklər və xərclər üzrə ehtiyatlara qeyri-müəyyən müddətə və ya məbləğə malik olan qeyri-maliyyə öhdəlikləri daxildir. Mərkəz keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəliklərə malik olduqda, həmin öhdəliklərin yerinə yetirilməsi üçün Mərkəz tərəfindən iqtisadi resursların sərf olunması ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə ehtiyatlar hesablanır.

Ehtiyatlar vergidən əvvəlki faiz dərəcəsindən istifadə etməklə, öhdəliyin yerinə yetirilməsi üçün zəruri olan xərclərin cari dəyəri ilə qiymətləndirilir. Vergidən əvvəlki faiz dərəcəsi pulun zaman dəyəri üzrə cari bazar qiymətlərini və öhdəliklərə xas olan riskləri əks etdirir. Vaxtın keçməsinə görə ehtiyatlardakı artım faiz xərcləri kimi tanınır.

### Dövlətin ayırmaları

Dövlətin ayırmaları pul qoyuluşları və ya əmlak formasında həyata keçirilir. Mərkəzin əldə etdiyi bu vəsaitlər ədalətli dəyərdə kapital hesabatı vasitəsilə qoyuluş kimi tanınır.

## 2. Əhəmiyyətli mühasibat prinsipləri (davamı)

### Şərti öhdəliklər

Şərti öhdəliklər onların satılması üçün iqtisadi resursların sərf olunması ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə maliyyə hesabatlarında tanınır. Şərti aktiv maliyyə hesabatlarında tanınmır, lakin iqtisadi səmərənin daxil olması ehtimal edildikdə maliyyə hesabatlarında açıqlanır.

## 3. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli uçot təxminləri və fərziyyələr

Mərkəzin maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verilməsini tələb edir.

Nəticədə əməliyyat fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində maliyyə hesabatlarında bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və bununla bağlı yalnız müəyyən ehtimallar irəli sürülə bilər.

Ehtimallar maliyyə hesabatları hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Mərkəzin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Mərkəz tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli qiymətləndirmələrə əmlak və avadanlıqların amortizasiya olunan ömrü, qeyri-maliyyə və maliyyə aktivlərinin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri və köhnəlmiş mal-material ehtiyatları, vergi və qanuni təəhhüdlər və təxirə salınmış vergitutma aiddir. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

Mərkəzin kapitalın idarə olunmasına dair rəsmi siyasəti olmadığından rəhbərlik Mərkəzin əməliyyat və strateji tələbatlarını ödəmək üçün və bazar iştirakçılarının əminliyini saxlamaq üçün kifayət qədər kapital bazasını qoruyub saxlamağa çalışır. Buna pul vəsaitlərinin səmərəli idarə edilməsi, Mərkəzin gəlirləri və mənfəətinin davamlı monitorinqi və Mərkəzin əməliyyat üzrə pul axınları ilə maliyyələşdirilən uzunmüddətli investisiya planları ilə nail olunur. Bu tədbirlər sayəsində Mərkəzin mənfəətin davamlı artımına nail olmağa çalışır

### Mülahizələr

Mərkəzin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə ən əhəmiyyətli təsiri olan daxil edilən təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

### Əmlak, tikili və avadanlıqların faydalı iqtisadi ömrü

Mərkəz hər maliyyə ilinin sonunda əmlak, tikili və avadanlıqları qalan faydalı iqtisadi ömürlərini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı ömürləri ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, “Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar” adlı 8 saylı MUBS-a müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqların qalıq dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə təsirləri olur.

## 4. Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Cari ildə Cəmiyyət Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) və MUBSŞ -in Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2024-cü il tarixində bitən hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**Aşağıdakı dəyişikliklər 01 yanvar 2024-cü ildən qüvvəyə minib.**

**"Satış və Geri İcarə Öhdəliyi" nə (16 saylı MHBS) edilən dəyişikliklər (22 sentyabr 2022-ci ildə dərc olunub və 01 yanvar 2024-cü il tarixində və ya bu tarixdən sonra başlayan dövlər üzrə qüvvəyə minir).**

Bu dəyişikliklər, MHBS 15 (Müştərilərlə bağlanmış müqavilələr üzrə yaranan gəlirlər) tələblərinə cavab verən və satış kimi hesablanan satış və icarəyə götürmə əməliyyatlarına aiddir. Bu dəyişikliklərə əsasən satıcı-icarəyə götürən əməliyyat nəticəsində yaranan öhdəlikləri sonradan elə şəkildə qiymətləndirməlidir ki, aktiv üzərində saxladığı istifadə hüququ ilə bağlı hər hansı gəliri və ya zərəri tanımasın. Satıcı-icarəçi tərəfindən aktivdən istifadə hüququ ilə bağlı hər hansı bir gəlir, icarə ödənişlərinin dəyişkən olmasından və indeksdən və ya dərəcədən asılı olmamağına baxmayaraq, təxirə salınmalıdır.

**Öhdəliklərin cari və ya uzunmüddətli kimi təsnifləşdirilməsi – 1 saylı MHBS-yə dəyişikliklər (ilkin olaraq 23 yanvar 2020-ci ildə dərc olunmuş və daha sonra 15 iyul 2020-ci il və 31 oktyabr 2022-ci il tarixlərində dəyişikliklər edilmiş, yekun olaraq 01 yanvar 2024-cü ildən və ya sonra başlayan dövrlər üçün qüvvəyə minir).**

Bu dəyişikliklərə əsasən öhdəliklər hesabat dövrünün sonunda mövcud olan hüquqlardan asılı olaraq, cari və ya uzunmüddətli kimi təsnif edilir. Öhdəliklər, əgər Cəmiyyətin hesabat dövrünün sonunda ən azı on iki ay müddətinə icranı təxirə salmaq üçün əsaslı bir hüququ varsa, uzunmüddətlidir. Yeni dəyişikliklər belə hüququn qeyri-şərtsiz olmasını artıq tələb etmir.

2022-ci ilin oktyabrında edilən dəyişikliklərə əsasən, hesabat tarixindən sonra riayət edilməsi tələb olunan xüsusi kredit şərtləri borcun cari və ya uzunmüddətli kimi təsnifləşdirilməsinə təsir göstərmir. Rəhbərliyin hesabat tarixindən sonrakı dövr ərzində öhdəliyin icrasını təxirə salmaq hüququnun istifadəsinə dair gözləntiləri öhdəliklərin təsnifatına təsir göstərmir.Əgər hesabat tarixində və ya ondan əvvəl borcun şərtlərindən hər hansı biri pozularsa, hətta hesabat dövründən sonra kreditor tərəfindən bu pozulmaya güzəşt tətbiq edilsə belə, həmin borc cari öhdəlik kimi təsnif edilir. Əksinə, əgər kredit şərtləri yalnız hesabat tarixindən sonra pozularsa, borc uzunmüddətli öhdəlik kimi təsnif edilir. Bundan əlavə, dəyişikliklər Cəmiyyətin borcunu kapitala çevirməklə tənzimləyə biləcəyi hallarla bağlı təsnifat tələblərini də özündə birləşdirir. "Tənzimləmə" anlayışı borcun nağd pul, iqtisadi faydalar ehtiva edən digər resurslar və ya Cəmiyyətin öz kapital alətləri ilə silinməsi kimi müəyyən edilir.Bu dəyişikliklər kapitala konvertasiya oluna bilən alətlər üçün istisnanı nəzərdə tutur, lakin bu istisna yalnız kombinə edilmiş maliyyə alətinin ayrıca komponenti şəklində pay aləti kimi təsnifləşdirilən konvertasiya seçiminin nəzərdə tutulduğu maliyyə alətlərinə aiddir.

## 4. Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

**"Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" adlı 7 saylı MUBS-yə və "Maliyyə alətləri: məlumatın açıqlanması" adlı 7 saylı MHBS-yə edilən dəyişikliklər: Təchizatçı maliyyələşdirmə razılaşmaları (25 may 2023-cü ildə dərc olunub və 01 yanvar 2024-cü ildən və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.)**

Maliyyə hesabatı istifadəçilərinin maliyyələşdirmə razılaşmalarının qeyri-adekvat və ya yanlış açıqlanması ilə bağlı narahatlıqlarına cavab olaraq, 2023-cü ilin may ayında MUBSŞ Cəmiyyətin təchizatçıların maliyyələşdirmə razılaşmaları (SFA) haqqında məlumatların açıqlanmasını tələb etmək üçün 7 saylı MUBS-yə və 7 saylı MHBS-yə dəyişikliklər etmişdir. Bu dəyişikliklər, maliyyə hesabatı istifadəçilərinin bu razılaşmaların Cəmiyyətin öhdəliklərinə və pul vəsaitlərinin hərəkətinə, həmçinin Cəmiyyətin likvidlik riskinə məruz qalmasına təsirlərini qiymətləndirməsinə imkan yaradan Cəmiyyətin təchizatçı maliyyələşdirmə razılaşmalarının açıqlanmalarını tələb edir. Əlavə açıqlanma tələblərinin məqsədi təchizatçı maliyyələşdirmə razılaşmalarının şəffaflığını artırmaqdır. Dəyişikliklər uçotun tanınması və ya ölçülməsi prinsiplərinə təsir etmir, yalnız açıqlanma tələblərinə təsir edir.

Əksinə qeyd olunmadığı təqdirdə, yuxarıda qeyd olunan dəyişikliklərin tətbiqi Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmamışdır.

## 5. Yeni uçot qaydaları

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət bu yeni və dəyişiklik edilmiş standartları və şərhləri, əgər tətbiq olunarsa, qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

**21 saylı MUBS-Mübadilə qabiliyyətinin olmamasına dəyişikliklər (15 avqust 2023-cü il tarixində dərc olunub və 01 yanvar 2025-ci il tarixindən başlayan və ya sonrakı illik dövrlər üçün qüvvəyə minir)**

MUBSŞ Müəssisələrə iki valyuta arasında mübadilə qabiliyyətinin qiymətləndirilməsinə və mübadilə qabiliyyəti olmadıqda spot məzənnənin müəyyən edilməsinə kömək etmək üçün 2023-cü il avqust ayında 21 saylı MUBS-yə dəyişikliklər dərc edib. Cəmiyyət dəyişikliklərdən xüsusi məqsəd üçün hesablama tarixində digər valyutaya mübadilə olunmayan xarici valyutada olan əməliyyatları olduqda təsirlənir. 21 saylı MUBS-yə dəyişikliklər cəmiyyətin spot məzənnənin necə təxmin edilməsinin detallı tələblərini təmin etmir. Əvəzinə, onlar Cəmiyyətin hesablama tarixinə olan spot məzənnəni müəyyən edə biləcəyi qayda təyin edirlər. Yeni tələbləri tətbiq edəndə, müqayisəli məlumatları yeniləməyə icazə verilmir. İlkin tətbiq edilən zaman yenilənmiş məbləğlərin ehtimal olunan spot məzənnə ilə bölüşdürülməmiş mənfəətə və ya məcmu məzənnə fərqləri üzrə ehtiyata dəyişikliklərin edilməsi tələb olunur.

## 5. Yeni uçot qaydaları (davamı)

**Maliyyə alətlərinin ölçülməsinə və təsnifatlaşdırılmasına olunan dəyişikliklər- 9 saylı MHBS və 7 saylı MHBS -yə olunan dəyişikliklər (30 may 2024-cü il tarixində dərc olunub və 01 yanvar 2026-cı il tarixindən başlayan və ya sonrakı illik dövrlər üçün qüvvəyə minir)**

30 may 2024-cü il tarixində MUBSŞ 9 saylı MHBS və 7 saylı MHBS-yə olunan dəyişiklikləri dərc edib:

- Bəzi maliyyə aktivlərinin və öhdəliklərinin tanınma və silinmə tarixlərinin aydınlaşması, elekton nağd pul köçürmə sistemi ilə ödənilən bəzi maliyyə öhdəlikləri üçün istisnadır;
- Maliyyə aktivinin yalnız əsas borc və faizlərin ödəniş şərtlərini (SPPİ) qarşılandığını qiymətləndirilməsi üçün növbəti təlimatların aydınlaşması və əlavə edilməsi;
- Nağd pul axınını dəyişə biləcək müqavilə şərti olan müəyyən alətlərin yeni açıqlamalarının əlavə olunması (ətraf mühitin, Cəmiyyətin və dövlət hədəflərinin çatması ilə bağlı xüsusiyyətləri olan bəzi alətlər); və
- Digər ümumi gəlirlər vasitəsi ilə ədalətli dəyərlə formalaşan kapital alətlərinin açıqlamalarının yenilənməsi;

**18 saylı MHBS Maliyyə hesabatlarının təqdimatı və açıqlamaları (09 aprel 2024-cü il tarixində dərc olunub və 01 yanvar 2027-ci il tarixindən başlayan və ya sonrakı illik dövrlər üçün qüvvədədir)**
Aprel 2024-cü ildə, MUBSŞ 18 saylı MHBS-nı, əsas diqqətin mənfəət və ya zərər Hesabatındakı yeniliklərə çəkməklə maliyyə hesabatların təqdimatı və açıqlamaları haqqında yeni standartı dərc edib. 18 saylı MHBS-da təqdim olunan əsas yeniliklərə aşağıdakılara aiddir:

- Mənfəət və ya zərər hesabatının quruluşuna;
- Cəmiyyətin maliyyə hesabatlarından kənarda dərc olunan müəyyən Mənfəət və ya Zərər fəaliyyət ölçüləri üçün tələb olunan açıqlamalara (rəhbərlik tərəfindən müəyyən olunan ölçülər);
- Ümumən ilkin maliyyə hesabatlarına və qeydlərinə tətbiq edilən təkmilləşdirilimiş birləşmə və bölünmə prinsiplərinə;

18 saylı MHBS, 1 saylı MUBS-nin bir çox prinsipləri limitli dəyişikliklərlə saxlayaraq, əvəz edəcək. 18 saylı MHBS maliyyə hesabatlarında maddələrin tanınmasına və ölçülməsinə təsir göstərməyəcək, lakin Cəmiyyətin "əməliyyat mənfəəti və ya zərəri" kimi təqdim etdiyi göstəriciləri dəyişə bilər. 18 saylı MHBS, 01 yanvar 2027-ci il və ya ondan sonra başlayan hesabat dövrləri üçün tətbiq olunacaq və müqayisəli məlumatlara da aiddir.

**19 saylı MHBS İctimai hesabatlılığı olmayan törəmə müəssisələrin açıqlanmaları (09 may 2024-cü ildə dərc olunub və 01 yanvar 2027-ci il və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir)**

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) törəmə müəssisələr üçün yeni MHBS Mühasibat Uçotu Standartını dərc etmişdir. 19 saylı MHBS, uyğun törəmə müəssisələrə azaldılmış açıqlanmalarla MHBS Mühasibat Uçotu Standartlarını istifadə etməyə icazə verir. 19 saylı MHBS-nin tətbiqi törəmə müəssisələrin maliyyə hesabatlarının hazırlanması ilə bağlı xərcləri azaldacaq, eyni zamanda onların maliyyə hesabatlarının istifadəçiləri üçün məlumatların faydalılığını qoruyub saxlayacaqdır.

## 5. Yeni uçot qaydaları (davamı)

Öz maliyyə hesabatları üçün MHBS Mühasibat Uçotu Standartlarını istifadə edən törəmə müəssisələr, onların istifadəçilərinin məlumat ehtiyacları ilə müqayisədə qeyri-mütənasib ola bilən açıqlanmalar təqdim edirlər. 19 saylı MHBS bu problemləri aşağıdakı şəkildə həll edəcəkdir:

• törəmə müəssisələrə həm ana şirkətin, həm də özlərinin maliyyə hesabatlarının istifadəçilərinin ehtiyaclarını təmin etmək imkanı yaratmaq üçün vahid mühasibat uçotunun tətbiqi;
• məlumatların açıqlanması tələblərinin azaldılması – MHBS 19 maliyyə hesabatlarının istifadəçilərinin ehtiyaclarına daha uyğun olan məlumatları açıqlamağa imkan verəcək.

Yuxarıda əksinə təsvir edilmədikcə, yeni standartlar və izahlar Rəhbərlik tərəfindən nəzərdən keçirilir və onların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsinin gözlənilmədiyinin qənaətinə gəlinir.

Bu yeni standartların və izahların tələbləri bu maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilməmişdir. Rəhbərlik bu yeni standartların və izahların mümkün təsirini qiymətləndirmiş və onların tətbiqinin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməyini gözləmir. Bu standartlar müvafiq qüvvəyə minmə tarixlərindən etibarən tələb olunduğu kimi tətbiq ediləcəkdir.

## 6. Əlaqəli tərəflərlə bağlı əməliyyatlar və qalıqlar

Mərkəz dövlət müəssisələri ilə əlaqədar “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı 24 saylı MUBS əsasında əlaqəli tərəflə əməliyyatlar və cari qalıqlar, o cümlədən təəhhüdlər ilə bağlı müəyyən məlumatların açıqlanması tələblərindən istisnanı tətbiq etmişdir. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Mərkəzin bilavasitə nəzarətçi tərəfi Azərbaycan Respublikası Hökumətidir.

Mərkəz dövlət ilə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə əlaqədar “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı 24 saylı MUBS-nin 25-ci bəndində qeyd olunmuş güzəştdən istifadə etmişdir.

Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər də daxil olmaqla, qalıq borclarla əlaqəli “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı 24 saylı MUBS-nin 18-ci bəndinin açıqlama tələblərindən aşağıdakılar ilə birlikdə azaddır:

(a) hesabat təqdim edən müəssisə nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olan hökumət; və

(b) eyni hökumətin həm təqdim edən müəssisənin, həm də digər təşkilatın nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olduğu üçün əlaqəli tərəf olan başqa bir müəssisə.

(c) Dövlətlə əlaqəli təşkilatlarla əməliyyatların xarakterinə elektrik enerjisi, qaz, benzin alınması və digər xidmətlərin alınması daxildir.

## 6. Əlaqəli tərəflərlə bağlı əməliyyatlar və qalıqlar (davamı)

### Əsas idarəedici heyətə ödənişlər

Mərkəzin əsas idarəedici heyətinə Direktor və Dirəktor müavini daxildir. Əsas idarəedici heyətin üzvləri təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq əmək haqqı və mükafatlar almaq hüququna malikdirlər.

2024-cü il ərzində əsas idarəedici heyətə ödənişlər 57,391 AZN (2023-cü il 84,895 AZN) təşkil etmişdir.

Əlaqəli tərəflərlə aşağıdakı əməliyyatlar olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| | Ümumi nəzarət altında olan qurumlar | Ümumi nəzarət altında olan qurumlar |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən əvəzsiz alınmış əsas vəsaitlər (qalıq dəyərlə) | 69,666 | - |

Əvəzsiz alınmış və verilmiş əsas vəsaitlərin ilkin dəyəri və kateqoriyası üzrə məlumatlar Qeyd 7-də açıqlanmışdır.

İcarə xərcindən gəlirlər üzrə əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakı kimi təsnif edilmişdir:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| İcarə xidmətindən gəlirlər | 823,080 | 823,080 |

## 7. Əmlak, tikili və avadanlıqlar

Əmlak, tikili və avadanlıqların qalıq dəyərindəki hərəkətlər aşağıdakı kimidir:

| | Binalar və tikililər | Mebel | Ofis avadanlıqları | Nəqliyyat vasitələri | Cəmi maddi aktivlər | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | | |
| **01 yanvar 2023-cü il** | **3,271,098** | **630** | **10,318** | **9,665** | **3,291,711** | **-** | **3,291,711** |
| Əlavələr | - | 3,535 | 2,119 | 4,985 | 10,639 | - | 10,639 |
| Əsas vəsaitin transferi | (3,271,098) | - | - | - | (3,271,098) | - | (3,271,098) |
| **31 dekabr 2023-cü il** | **-** | **4,165** | **12,437** | **14,650** | **31,252** | **-** | **31,252** |
| Əlavələr | - | - | - | 80,377 | 80,377 | 4,133 | 84,510 |
| Əvəzsiz alınan | - | - | - | (14,650) | (14,650) | - | (14,650) |
| **31 dekabr 2024-cü il** | **-** | **4,165** | **12,437** | **80,377** | **96,979** | **4,133** | **101,112** |
| **Yığılmış köhnəlmə** | | | | | | | |
| **01 yanvar 2023-cü il** | **(441,868)** | **(126)** | **(2,739)** | **(4,228)** | **(448,961)** | **-** | **(448,961)** |
| İl üzrə köhnəlmə xərci | - | (808) | (1,940) | (2,605) | (5,353) | - | (5,353) |
| Köhnəlmənin transferi | 441,868 | - | - | - | 441,868 | - | 441,868 |
| **31 dekabr 2023-cü il** | **-** | **(934)** | **(4,679)** | **(6,833)** | **(12,446)** | **-** | **(12,446)** |
| İl üzrə köhnəlmə | - | (292) | (1,007) | (11,588) | (12,887) | (111) | (12,998) |
| Köhnəlmənin silinməsi | - | - | - | 6,833 | 6,833 | - | 6,833 |
| **31 dekabr 2024-cü il** | **-** | **(1,226)** | **(5,686)** | **(11,588)** | **(18,500)** | **(111)** | **(18,611)** |
| **Xalis qalıq dəyəri** | | | | | | | |
| **01 yanvar 2023-cü il** | **2,829,230** | **504** | **7,579** | **5,437** | **2,842,750** | **-** | **2,842,750** |
| **31 dekabr 2023-cü il** | **-** | **3,231** | **7,758** | **7,817** | **18,806** | **-** | **18,806** |
| **31 dekabr 2024-cü il** | **-** | **2,939** | **6,751** | **68,789** | **78,479** | **4,022** | **82,501** |

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə tam şəkildə köhnəlmə olunan əsas vəsait olmamışdır.

## 8. İnvestisiya mülkiyyəti

İnvestisiyatı mülkiyyəti aşağldakılardan ibarətdir:

| | **Cəm** |
|---|---:|
| **İlkin dəyər:** | |
| **01 yanvar 2023-cü il** | - |
| Torpaq, tikili və avadanlıqlardan transfer | 2,829,230 |
| **31 dekabr 2023-cü il** | **2,829,230** |
| Əlavələr | - |
| **31 dekabr 2024-cü il** | **2,829,230** |
| **Yığılmış köhnəlmə:** | |
| **01 yanvar 2023-cü il** | - |
| İl üzrə köhnəlmə xərci | (198,046) |
| **31 dekabr 2023-cü il** | **(198,046)** |
| İl üzrə köhnəlmə xərci | (184,191) |
| **31 dekabr 2024-cü il** | **(382,237)** |
| **Qalıq dəyəri:** | |
| **01 yanvar 2023-cü il** | - |
| **31 dekabr 2023-cü il** | **2,631,184** |
| **31 dekabr 2024-cü il** | **2,446,993** |

2021-ci il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən əvəzsiz olaraq 3,271,098 AZN ilkin dəyərində bina alınmışdır. 2023-cü ildə bina yenidən qiymətləndirilmiş və investisiya mülkiyyəti kimi təsnif olunmuşdur.
31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə investisiya mülkiyyəti dəyər metodu ilə uçota alınmışdır və maliyyə hesabatlarında balans dəyərində təqdim olunmuşdur.

## 9. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---:|---:|
| Banklardakı müxbir hesablar | 357,033 | 276,579 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **357,033** | **276,579** |

Bank qalıqları nə vaxtı keçmiş, nə də dəyərsizləşmişdir və Azərbaycan Respublikasında yerləşir.

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə Mərkəzin banklarda yerləşdirilmiş faiz yaradan depozit hesabı yoxdur.

## 10. Debitor borclar

Debitor borcları və digər alınacaq vəsaitlərə daxildir:

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---:|---:|
| İcarə xidmətləri üzrə alınacaq vəsaitlər | 4,772 | 3,445 |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər** | **4,772** | **3,445** |

## 11. Nizamnamə kapitalı

Mərkəzin qeydə alınmış nizamnamə kapitalı 31 dekabr 2024-cü il tarixinə 3,271,098 AZN-ə bərabər olmuşdur. (31 dekabr 2023-cü il 3,271,098 AZN)

6 avqust 2021-ci il kapital qoyuluşu 3,271,098 AZN olmuşdur. 2021-ci ildə 205,363 AZN, 2024-cü ildə 80,377 AZN əlavə kapital qoyuluşu qeydə alınmışdır. Umumi kapitalın cəmi 31 dekabr 2024-cü il tarixinə 3,555,953 AZN olmuşdur.

## 12. İşçi heyəti ilə bağlı məsrəflər

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | (392,635) | (326,975) |
| DSMF-yə ayırmalar | (186,559) | (128,183) |
| İşçilərlə bağlı digər ödənişlər | - | (53,448) |
| Ezamiyyə xərci | (1,404) | (1,442) |
| **Cəmi işçi heyəti ilə bağlı məsrəflər** | **(580,598)** | **(510,048)** |

## 13. Sosial xidmət və maddi yardım xərcləri

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Maddi yardım və müavinət xərcləri | (142,058) | (154,170) |
| Sosial yönümlü xərclər | - | (91,435) |
| **Cəmi sosial xidmət və maddi yardım xərcləri** | **(142,058)** | **(245,605)** |

## 14. İnzibati və digər əməliyyat xərcləri

İnzibati və digər əməliyyat xərcləri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Sığorta xərci | (12,193) | (11,662) |
| Kommunal xərcləri | (9,080) | (4,575) |
| Yanacaq xərci | (8,444) | (7,044) |
| Peşəkar xidmət haqları | (8,260) | (7,720) |
| Əsas vəsaitin silinməsindən zərər | (7,816) | - |
| Ofis xərcləri | (6,353) | (6,498) |
| İcarə xərci | (4,800) | (6,600) |
| Bank komissiyası | (4,580) | (5,305) |
| Təmir xərcləri | (990) | (6,635) |
| Rabitə xərcləri | (628) | (1,175) |
| Lisenziya xərcləri | - | (2,802) |
| İstifadə olunmuş material və vəsaitlər | - | (1,770) |
| Əmlak vergisi xərci | - | (1,440) |
| Çatdırılma xərci | - | (1,384) |
| Sanitariya və gigiyena xərcləri | - | (148) |
| Digər xərclər | (13,197) | - |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **(76,340)** | **(64,758)** |

## 15. Digər əməliyyat gəlirləri

Digər əməliyyat gəlirləri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| İcarə xidmətindən gəlir | 867,937 | 867,689 |
| Digər gəlirlər | 6,349 | - |
| **Cəmi digər əməliyyat gəlirləri** | **874,286** | **867,689** |

## 16. Təəhhüdlər, şərti öhdəliklər və əməliyyat riskləri

### Təəhhüdlər

31 dekabr 2024-cü il tarixinə Mərkəz tərəfindən heç bir maliyyə zəmanəti verilməmişdir. Eyni zamanda hesabat tarixinə Mərkəzin kapital xərcləri ilə bağlı öhdəlikləri olmamışdır.

### Şərti öhdəliklər

### Məhkəmə prosesləri

Adi fəaliyyət gedişində vaxtaşırı olaraq Mərkəza qarşı iddialar irəli sürülə bilər. Mərkəzin rəhbərliyi öz təxminlərinə əsasən, hesab edir ki, bu iddialar ilə bağlı əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq 31 dekabr 2024-cü il tarixinə hazırkı maliyyə hesabatlarında bu iddialarla bağlı ehtiyat yaradılmamışdır.

### Şərti vergi öhdəlikləri

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Mərkəzin əməliyyatları və fəaliyyəti ilə bağlı belə qanunvericiliyə dair rəhbərliyin mövqeyinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Mərkəzin rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrük qanunvericiliyi ilə bağlı Mərkəzin mövqeləri dəyişilməyəcəkdir. Müvafiq olaraq, 31 dekabr 2024-cü il tarixinə mümkün vergi öhdəlikləri üzrə hər hansı ehtiyat qeydə alınmamışdır.

### Əməliyyat mühiti

Azərbaycanın iqtisadiyyatı, bir çox inkişaf etməkdə olan bazarlar kimi, qlobal iqtisadi şərtlər, hökumət siyasəti və enerji qiymətlərindəki dalğalanmalardan təsirlənməyə davam edir. Ölkə iqtisadiyyatın şaxələndirilməsinə diqqət yetirsə də, əsas sahələrdə sabitliyin qorunması uzunmüddətli inkişaf üçün vacibdir. Azərbaycanın iqtisadiyyatının gələcək inkişaf istiqaməti əsasən fiskal və monetar siyasətlərin effektivliyindən, həmçinin xam neft qiymətlərindən və milli valyutanın sabitliyindən asılıdır.

## 16. Təəhhüdlər, şərti öhdəliklər və əməliyyat riskləri (davamı)

### Əməliyyat mühiti (davamı)

2023-cü ildə Azərbaycanın ÜDM-i əvvəlki illə müqayisədə 1,1% artaraq 123,0 milyard manata (72,36 milyard ABŞ dolları) çatıb. 2024-cü il ərzində iqtisadi göstəricilər həm xarici, həm də daxili amillərdən təsirlənib. Qlobal əmtəə qiymətlərindəki dalğalanmalar və geosiyasi qeyri-müəyyənliklər problemlər yaratsa da, Azərbaycan əlverişli ticarət mühitindən faydalanıb. Belə ki, Ölkədə güclü xarici ticarət dövriyyəsini qoruyaraq, 2024-cü ildə 5,5 milyard ABŞ dolları həcmində ticarət balansında müsbət saldo qeydə alınıb.

Strateji valyuta ehtiyatları nəzərəçarpacaq dərəcədə artaraq 2024-cü ilin noyabrınadək 10,9 milyard ABŞ dollarına çataraq, mühüm beynəlxalq səviyyədə tanınmış səviyyələrini üstələyib və Azərbaycan manatının sabitliyini möhkəmləndirib.

Azərbaycan Mərkəzi Bankı inflyasiyanın idarə olunması və makroiqtisadi sabitliyin təmin edilməsi istiqamətində səylərini davam etdirib. 2023-cü ildə illik inflyasiya səviyyəsi 9,5% təşkil edirdisə, 2024-cü ilin sonuna inflyasiya Mərkəzi Bankın 4±2% hədəf diapazonuna uyğun olaraq 4,9%-ə qədər azaldı. Əsas qiymət dəyişikliklərinə ərzaq məhsulları üzrə 5,5%, qeyri-ərzaq məhsulları üzrə 2,4%, xidmətlər üzrə isə 6,3% artım daxildir. Qiymət sabitliyini daha da dəstəkləmək üçün yenidən maliyyələşdirmə dərəcəsi 2023-cü ildəki 8%-dən 2024-cü ilin sonuna kimi 7,25%-ə endirildi.

Beynəlxalq kredit reytinq agentlikləri Azərbaycanın iqtisadi perspektivlərini qiymətləndirməyə davam ediblər. 2023-cü ildə "Fitch" və "S&P" Azərbaycana "BB+", "Moody's" beynəlxalq reytinq agentliyi isə "Ba1" proqnozunu sabit saxlayıb. 2024-cü ildə bu qiymətləndirmələr Azərbaycanın fiskal siyasətinə və xarici tarazlıqlara daha güclü inamı əks etdirir. "Fitch Ratings" sağlam fiskal idarəetmə və müsbət iqtisadi əsaslara istinad edərək Azərbaycanın reytinqini "BBB-" səviyyəsinə yüksəldib. S&P isə "BB+/B" reytinqini səviyyəsində təsdiqləyərkən, Moody's proqnozunu "müsbət" (Ba1, "müsbət") olaraq dəyişdirdi.

Bu müsbət iqtisadi göstəricilərə baxmayaraq, qeyri-müəyyənliklər qalmaqdadır. Qlobal enerji qiymətlərindəki dalğalanmalar, geosiyasi hadisələr və inflyasiya təzyiqləri də daxil olmaqla xarici risklər maliyyə sabitliyinə təsir göstərə bilər. Bununla belə, iqtisadi siyasətlərin və monetar tədbirlərin davam etdirilməsinin bu risklərin azaldılmasına kömək edəcəyi gözlənilir.

Cəmiyyət maliyyə dayanıqlığını qorumaq və uzunmüddətli davamlılığı təmin etmək üçün makroiqtisadi tendensiyaları diqqətlə izləməyə davam edir. İqtisadi şərait inkişaf etdikcə, rəhbərlik sabitliyi qorumaq və davamlı artımı dəstəkləmək üçün strategiyaları fəal şəkildə uyğunlaşdırmağa hazırdır.

## 17. Maliyyə risklərinin idarə edilməsi

Mərkəz daxilində risklərin idarə edilməsi maliyyə riskləri, əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən valyuta riski, faiz dərəcəsi riski və digər qiymət riskləri), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

### Bazar riski

Mərkəz bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan xarici valyuta, faiz dərəcələri və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar riskinə məruz qala bilər. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Buna baxmayaraq, bu cür yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklər baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

## 17. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Valyuta riski

Valyuta riski satış, alış və borclar üzrə əməliyyatlar Mərkəzin müvafiq əməliyyat valyutalarından başqa valyutalarda ifadə olunduqda yaranır. 31 dekabr 2024-cü il tarixinə Mərkəzin xarici valyutada əməliyyatları olmadığı üçün Mərkəz xarici valyuta riskinə məruz qalmamışdır.

### Faiz dərəcəsi riski

Mərkəz bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qala bilər. Mərkəz 31 dekabr 2023-cü il tarixinə dəyişən faizli maliyyə aktiv və öhdəliklərinə malik olmadığına görə əhəmiyyətli dərəcədə faiz dərəcəsi riskinə məruz qalmamışdır.

### Kredit riski

Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəfin öz öhdəliyini yerinə yetirə bilməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurularsa, Mərkəz kredit riskinə məruz qalır. Kredit riski Mərkəzin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır. Mərkəzin 31 dekabr 2024-cü il tarixinə kredit riskinə məruz qalan maliyyə alətləri yoxdur.

### Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərləri

9 saylı MHBS-in dəyərsizləşmə ilə bağlı tələbləri pul vəsaitləri və onların ekvivalentlərinə də şamil olunsa da, müəyyən edilmiş dəyərsizləşmə zərərinin həcmi əhəmiyyətsiz olmuşdur.

### Likvidlik riski

Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsində müəssisənin çətinliklərlə üzləşəcəyi riskidir. Mərkəz gözlənilməyən likvidlik tələblərini tez bir zamanda və asanlıqla yerinə yetirmək üçün vəsaitləri pul vəsaitləri və onların ekvivalentləri şəklində saxlayır.

### Vergi riski

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.4-cü maddəsinə əsasən dövlətin adından yaradılan publik hüquqi şəxslərin gəlirləri (dividend gəlirləri, sahibkarlıq fəaliyyətindən gəlir, o cümlədən publik hüquqi şəxslərin bu Məcəllənin 164.1.48-ci maddəsində göstərilmiş işlərin görülməsi və xidmətlərin göstərilməsindən (həmin maddədə nəzərdə tutulan müddətdə) başqa digər ödənişli işlər görməsindən və xidmətlər göstərməsindən əldə olunan gəlirləri və faiz gəlirləri istisna olmaqla) vergidən azaddır.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.48.-ci maddəsinə əsasən dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən nizamnamələrində nəzərdə tutulan və onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsi – 2020-ci il yanvarın 1-dən 7 il müddətinə vergidən azaddır.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 199.1.-ci maddəsinə əsasən dövlətin adından yaradılan publik hüquqi şəxslər (sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan əmlaka görə ödənilməli əmlak vergisi istisna olmaqla) əmlak vergisini ödəməkdən azaddır.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 207.1.2.-ci maddəsinə əsasən dövlətin adından yaradılan publik hüquqi şəxslərin (sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan torpaqlar istisna olmaqla) mülkiyyətində və ya istifadəsində olan torpaqlar torpaq vergisinə cəlb edilmir.

## 18. Ədalətli dəyər haqqında açıqlamalar

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş), (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər) və ya dolayısı ilə (yəni qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və (iii) 3-cü Səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür.

Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi, bütövlükdə, ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərdə tanınan maliyyə alətləri mövcud olmamışdır.

Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan aktiv və öhdəliklər üç aydan artıq ödəmə müddəti olan aktiv və öhdəliklərin qalıq dəyəri belə maliyyə aktivlərinin ödəmə müddətlərinin nisbətən qısa olması ilə əlaqədar olaraq təxminən onların ədalətli dəyərini özündə əks etdirir. Digər maliyyə alətlərinin ədalətli dəyəri oxşar kredit riskinə və ödəmə müddətinə malik olan yeni alətlər üçün ilin sonuna müvafiq bazar dərəcələri ilə diskontlaşdırılmış gələcək pul axınlarının cari dəyəri kimi hesablanır.

Rəhbərlik hesab edir ki, maliyyə hesabatlarında tanınmış maliyyə aktiv və öhdəliklərinin qalıq dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir və ədalətli dəyər iyerarxiyasının 2-ci Səviyyəsinə aid edilmişdir.

## 19. Yenidən qiymətləndirmə

31 dekabr 2024-ci il tarixində başa çatan il üzrə maliyyə hesabatları hazırlanarkən Mərkəz 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə aşağdakı müqayisəli məlumatı yenidən hesablamışdır.

31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabata təsir:

| | **Əvvəki hesabat üzrə** | **Səhvin düzəldilməsi** | **Yenidən təsnifatlaşdırılmış** |
|---|---|---|---|
| Əmlak, tikili və avadanlıqlar | 3,271,098 | (3,271,098) | - |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | (441,868) | 441,868 | - |
| İnvestisiya mülkiyyəti | - | 2,829,230 | 2,829,230 |

## 20. Hesabat tarixindən sonrakı hadisələr

Hesabat tarixindən sonra heç bir əhəmiyyətli hadisə baş verməmişdir.